DÖVLƏT VERGİ XİDMƏTİ

# Fəaliyyətiniz sənaye, yaxud texnologiyalar parkları və sənaye məhəllələri ilə bağlıdırsa bunları bilməlisiniz!

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən 01.01.2025-ci il tarixdən etibarən**

❖ Texnologiyalar parkının rezidenti kimi texnologiyalar parkından kənar fəaliyyət göstərən sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən vergi ödəyicilərində yalnız bu sahə üzrə işləyən mütəxəssislərin muzdlu işdən əldə edilən aylıq gəlirlərindən gəlir vergisi aşağıdakı qaydada tutulur:

- 01.01.2023-cü il tarixdən 3 il müddətində aylıq gəlir 8000 manatadək olduqda 0 faiz, 8000 manatdan çox olan məbləğin **5 faizi**;
- 01.01.2026-cı il tarixdən 7 il müddətində aylıq gəlirin **5 faizi**.

195-1
AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az
www.taxes.gov.az

- Texnologiyalar parkının rezidenti kimi texnologiyalar parkından kənar sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən şəxslər tərəfindən ödənilən dividendlər texnologiyalar parkının qeydiyyat şəhadətnaməsinin alındığı hesabat ilindən başlayaraq **10 il müddətinə** hüquqi şəxslərin mənfəət vergisindən və fiziki şəxslərin gəlir vergisindən azaddır.
- Müvafiq icra hakimiyyəti orqanının (Azərbaycan Respublikasının Prezidenti) müəyyən etdiyi orqanın (qurumun) yaratdığı sənaye, yaxud texnologiyalar parkları ilə yanaşı sənaye məhəllələrinin də idarəedici təşkilatı və ya operatoru sənaye, yaxud texnologiyalar parklarının və sənaye məhəllələrinin ərazisində yerləşən əmlaklarına və istifadə etdiyi torpaqlara görə əmlak və torpaq vergilərini ödəməkdən azaddır.

**BAKI — 2025**